


Məhərrəm MUSTAFA

# Yaralı tut ağacı

(Seçilmiş hekayələri)



MUSTAFA Məhərrəm Nüsrəddin oğlu 1956 -cı il avqust ayının 11- də Xaçmaz rayonunda anadan olmuşdur. "Xalqlar Dostluğu" ordenli Moskva Kooperativ İnstitutunun İqtisadiyyat fakültəsinin məzunudur.Ailəlidir. İki övladı var. Kitabda təqdim olunan hekayələr , Qarabağ və hərbi vətənpərvərlik mövzusundadır.

**Müəllif:Məhərrəm MUSTAFA**
**Redaktor: Mehri MUSTAFA(yazıçı)**
**Korrektor: Füzuli Baratov**

## Ön söz

## Hekayələrində Qarabağ yanğısı, Vətən dərdi göyərdən yazıçı

Məhərrəm Mustafa ilə onun iş yerində rastlaşdım.Mənə özünün yazdığı bir neçə hekayəni göstərdi.Xoşum gəldi.Mən peşəkarlığını daha da artırmaq üçün onun ədəbi məclisimizə gəlməsini məsləhət bildim.O, ədəbi məclisimizə gəldi və bir neçə yazısını oxudu. Məclis üzvləri onun yazılarını bəyəndilər. Belə bir yazarın ədəbi məclisə gəlməsi onların ürəyincə oldu. Nə idi Məhərrəm Mustafanı məclis üzvlərinə sevdirən? Təbii ki,onun hekayələri. O hekayələr ki, onları oxuduqca onlarda Qarabağ yanğısı, Vətən dərdi göyərməyə başlayır. Adam kövrəlir, vətənpərvərlik hissləri aşılayan bu hekayələr insanın xəyalını Qarabağa, cəbhə xəttinə aparır. Müharibədə həlak olmuş qəhrəman oğullarımız, bu gün cəbhə xəttində ayıq-sayıq duran əsgərlərimiz gözümüz önündə canlanır. Bir daha Azərbaycanımızı ürəkdən sevir,ona qəlbən bağlanırıq. "Yaralı tut ağacı"nda bu ağacın insanlardan imdad diləməsi,"Damsız ev"də ananın evin damını müharibədən oğlu gəlməyənə qədər vurmaması, "Səngərdə Qurban süfrəsi"ndə qurbanlıq ətin əsgərləri ölümdən xilas etməsi, "Müqəddəs duz"da ananın oğlunun cibinə büküb qoyduğu duza Qarabağın ətri, sevgisi hopduğu üçün müqəddəs sayılması bu əsərlərin yüksək məziyyətlərindən xəbər verir. "Ata əmanəti"ndə İntiqamın atasının ona əmanəti olan Azərbaycan Bayrağını yaralanmış vəziyyətdə də sinəsinə basıb qorumuşdu. Bəli, bu hekayələrin əsas mövzusu vətənpərvərlikdir. Təbii ki, vətənpərvərlikdən yazan adam özü birinci növbədə vətənpərvər olmalıdır. Bu vətənpərvər yazarımıza yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Fərzalı Ziyanur, şair, Xaçmazdakı "Ulduzlar" ədəbi məclisinin sədri.***

## Məhərrəm Mustafanın söz qüdrəti

Ədəbiyyat, poeziya həyatımızı, mənəviyyatımızı əks etdirən bir güzgüdür. Onun qarşısında yeni insan tərbiyə etmək, cəmiyyətimiz, dövrümüz üçün faydalı vətəndaş püxtələşdirmək kimi böyük əhəmiyyət kəsb edən bir vəzifə durur. Öz dövrü ilə səsləşən müxtəlif səpkili romanlar, poemalar, povest və hekayələr, şerlər yazan sənət adamlarımız yaratdıqları poeziya nümunələrinə həmçinin ürəklərinin arzu və istəklərini, xəyallarını, daxili gözəlliklərinin rəng çalarlarını da əlavə edirlər. Əlbəttə ki, oxucu ilk növbədə onu çəlb edən mövzunu seçir, belə səpkili sənət nümunələrinin növü də oxucunun zövqünə görədir. Amma, mən bütün oxuculara Məhərrəm Mustafanın "Yaralı tut ağacı" hekayələr kitabını məsləhət görərdim. Hərbi vətənpərvərlik mövzusuna həsr olunmuş bu hekayələr həm aktuallığı, həm də sənətkarlığı baxımından seçilir. Mən sizlərlə bu hekayələr haqqında bəzi mülahizələrimi bölüşümək istəyirəm.

Ədəbiyyatda hekayə janrı yazarlarımız tərəfindən həmişə müraciət olunan və ən çox oxunan bir janrdır. Məhərrəm Mustafanın hərbi vətənpərvərlik mövzusunda qələmə aldığı "Yaralı tut ağacı" hekayələr kitabı da dövrümüzlə səsləşən dəyərli sənət nümunələrindən hesab oluna bilər. Uzun illərdir ki, Azərbaycan torpaqları mənfur erməni siyasətinin, onun məkrli oyunlarının qurbanıdır. Günahsız insan qanları axıdılır, soydaşlarımız torpaqlarımızdan, öz yurd-yuvalarından didərgin düşmüşlər. Vətənimizin cənnət guşəsi olan Qarabağımız: Şuşamız, Laçınımız, Kəlbəcərimiz, günahsız sakinlərinin qanı axıdılıb, yerlə-yeksan edilən Xocalımız, bir çox şəhər və kəndlərimiz erməni qəsbkarları tərəfindən amansızcasına işğal olunmuşdur.Vətənin ən layiqli oğulları canlarını Vətən yolunda şəhid ediblər. Bütün bunlar bir yazar kimi Məhərrəm Mustafanın hekayələrində ürək ağrısı, Vətənə sonsuz sevgi və bacarıqla qələmə alınmışdır. Yazar hekayədə təsvir etdiyi qəhrəmanlarının simasında haqlı qələbəmizə böyük inam, Azərbaycanın hər qarışı üçün şəhid yetişdirib tərbiyə edən ata və analarımıza dərin rəğbət, məhəbbət hissi yarada bilmişdir.

"Yaralı tut ağacı"nın qəhrəmanı, xüsusi hərbi təlim hazırlığı keçmiş Novruz təyin olunduğu hərbi hissədə səngərə yaxın, erməni gülləsi ilə dəlik-deşik olmuş tut ağacının "yaralarına" dözə bilmir... Onu gecə vaxtı, həyatını təhlükəyə atmaqdan çəkinməyərək , erməni gülləsindən qorxmayaraq " xilas " edir.

\- "Hə, tut ağacı, səni xilas etdim, çox çəkməz Qarabağı da azad edərik"- deyə qələbəyə möhkəm inanır.

"Ata əmanəti" hekayəsində isə müəllif Xocalı faciəsi günü dünyaya gəlmiş İntiqamın xidməti borcunu yerinə yetirərkən göstərdiyi şücaəti, Azərbaycan bayrağına olan hörmət və məhəbbəti ön plana çəkir. Qarabağ cəbhəsində həlak olmuş atasından yadigar qalan bayrağı sinəsinə sıxaraq güllədən qoruyan əsgər gənclərimizn soy-kökünə bağlılığının bariz nümunəsidir.

“Əlinin müqəddəs əmanəti” isə cəbhə dostlarının bir-birinə sədaqətindən, anda vəfalılığından, əqidə, məslək dostlarının yenilməzliyindən bəhs edir. Müəllif qələminin qüdrəti ilə Ömərin qismində Qarabağ cəbhəsində, səngərdə püxtələşib mətinləşmiş əsil Vətən oğlunun, Azərbaycan əsgərinin dolğun obrazını yaradır. Ordudan tərxis olunsa da kəşfiyyata gedərkən qayıdıb gələcyinə və çörək paylarını birgə yeyəcəklərinə söz verən Əlini ümidlə, inamla gözləyir. Bacısı Fatimənin, “Qardaş, o gələcəkmi?”, sualına isə belə cavab verir: “Bacı, söz verib ki, gələcək. Söz veribsə mütləq gələcək !”

Müəllif bununla demək istəyir ki, heç bir çətinlik, heç bir itki Azərbaycan əsgərinin döyüş əzmini, iradəsini qıra bilməz.

“Qaranquşun Xocalı arzusu” və “Müqəddəs duz” hekayələrini də həyəcansız oxumaq olmur. Kövrəlirsən, dərindən düşünməyə çalışırsan. Ulu torpaqlarımıza zaman-zaman xain, işğalşçı əllərini uzadan ermənilərin əsil yırtıcı simasını görürsən.

Ana qaranquş erməni işğalçıları tərəfindən yerlə-yeksan edilən Xocalını öz balalarına göstərib deyir: - “ Balalarım, bura Azərbaycanın Xocalı kəndidir. Bir vaxtlar burada insanlar yaşayırdı. Gözəl evlər, bağlar, meşələr, bulaqlar göz oxşayırdı. Bax, gördüyünüz bu uçuq-sökük evdə biz insanlarla birlikdə yaşayırdıq”.

Müəllif ana qaranquşun dili ilə erməni cəlladlarının viran qoyduqları elləri, obaları deyir, yurd həsrəti ilə yaşayan insanların ağrı-acılarını təsirli boyalarla təsvir edir. Ana qaranquş saç-birçəyini övladları yolunda ağardan ağbircəklərimizin simvoludur hekayədə. O öz övladlarına doğma yurda məhəbbət, hörmət aşılayır, torpaqlarımız uğrunda mübarizəyə, işğala, əsarətə qarşı amansızlığa səsləyir.

Duzu, çörəyi müqəddəs bilib uca tutan xalqımız hər zaman duz-çörəyinə sadiq olub. Belə ki, “Müqəddəs duz” hekayəsində ana oğlunu cəbhəyə əsgəri xidmətə yola salarkən ona bir bükülü verir. Tapşırır ki , hər zaman yanında saxlasın, bu onu qoruyacaq! Hərbi xidməti müddətində hər zaman yanında gəzdirdiyi və ehtiyacı olanda yararlandığı bu düz bükülüsü bir ana nəfəsinə, ana hənirtisinə dönüb Altayı qoruyur. Əsgər hərbi xidməti başa vurub geri qayıdanda isə Duz gölünün yanından keçərkən sürücüdən avtobusu saxlamağı xahiş edir və özündə saxladığı duz bükülüsünün qalanını həmin gölə səpir. Sərnişinlərin ona təəccüblə baxdığını görəndə isə belə cavab verir: “Əsgər gedəndə anam mənə bu gölün duzundan bir bükülü verib. Bu gölə səpdiyim duz bütün Qarabağı mənimlə birgə gəzib. Bu duza Qarabağın ətri, ruhu, sevgisi, məhəbbəti hopub. İstəyirəm ki, bütün süfrələrdə də bu duzdan olsun. Hamıya özü ilə Qarabağ sevgisi çatdırsın”.

Təsirlidir, elə deyilmi ?... Ürəyi eli, onun doğma Qarabağı üçün yanmayan, vətən təəssübü çəkməyən bir yazar belə sevgini duya, onu təsvir edə, yaza bilməz!

Məhərrəm Mustafanın yazı üslubu, hekayə dili də çox yapışıqlı, xırdaçılıqdan uzaqdır. O yazılarında sıra xətri üçün cümlə düzmür, uzun-uzadı yorucu təsvirlər vermir. Müəllif oxucunu boş yerə yorub, təxəyyülünü "yükləmir". Lakonik dil, aydın, rəvan ifadə tərzi onun hekayələrini səciyyələndirən xüsusiyyətlərdəndir.

Mən Məhərrəm Mustafaya daha böyük sənət uğurları arzu edirəm!

***Sevinc MƏMMƏDOVA, şair-publisist***

## Məhərrəm Mustafa yaradıcılığına baxış

Şairlik nə qədər ürəyin məhsuludursa, yazıçılıq da bir o qədər beynin və məntiqin təcəssümüdür. Məktəb illərindən kitablardan yığdığımız söz ehtiyatını, bir gün gəlir, öz qələmimizlə bu dünyada qalacaq əsərlərə çevirmək istəyirik. Mən belə düşünürəm ki, hər bir insanın içində öz qəlbindəkini demək, çatdırmaq və yaxud buna oxşar sözlə desək, yazaraq bildirmək istəyi olur. Qələm adamlarına verilən bu xüsusi özəllik bundan ibarətdir ki, onlar minlərin, milyonların demək istədiyini deyə bilir.

Bütün bunları bir kənara qoyaq. Bu gün hələ də sözdən layiqincə və tam formada istifadə edilməklə güclü, insanın beynini və düşüncəsini özünə məhkum edən əsərlər çox az yazılır. Bölgələrimizdə özünəməxsusluq və üslub tərzi fərqliliklər təşkil edir. Şimal zonasını götürsək, Xaçmazda yaşayan, "Ulduzlar" ədəbi məclisinin üzvü Məhərrəm Mustafanın hekayələri artıq bu günlər üçün tam oxunaqlı və orijinaldır.Yazıçı qələmini vətən mövzusunda yazılan hekayələrində sınayaraq ürəyimizdən tikan çıxaracaq əsərlər araya, ərsəyə gətirməklə əsl vətənini sevən bir vətəndaş olduğunu diqqətlərə çatdırmağa çalışır...

Müasir durum elə tələb edir ki, bir vətəndaş olaraq hər bir yazarımız öz qələmini belə əsərlər yaratmaqla gələcək nəsillərə çatdırmaq məqsədi ilə sınamalıdır. Dövrün, zamanın süzgəcindən keçəcək hekayələr və eləcə də şerlər bir gün gələcək, bizim ədəbi həyatımızda öz sözünü deməyi bacaracaqdır. Bu ağır və çətin yolda bütün dostlara müvəffəqiyyətlər arzu edirəm.

***AY Bəniz Əliyar, şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü***

# YARALI TUT AĞACI

Qarabağda şiddətli döyüşlər gedirdi. Xüsusi hərbi xidmət



görmüş Novruzu cəbhə xəttinə göndərmişdilər. Hərbi hissəyə çatanda artıq axşam düşmüşdü. Hissə yamacın aşağısında yerləşirdi. Yol yorğunu olduğundan gəlişi barədə növbətçiyə məlumat verib yatmağı qərara aldı. Səhərin gözü açılar-açılmaz güllə səslərinə yuxudan oyandı. Cəld geyinib silahını çiyninə keçirib sürünə-sürünə səngərə doğru irəlilədi. Özünü əsgər yoldaşlarına çatdırıb düşmənin mövqelərinə atəş açmağa başladı. Bir saatdan çox davam edən atışma ara verdi. Artıq gün çıxmışdı. Başı döyüşə qarışdığı üçün ətrafa düz-əməlli fikir verməmişdi. İndi isə yaranmış sakitlikdən istifadə edib ətrafa göz gəzdirməyə başladı. Qəribədir, bu qədər ərazidə cəmi bircə ağac vardı. Kölgəsi onun üstünə düşmüşdü. Kürəyini səngərin divarına söykəyib başının üstündəki ağaca baxdı. Gözləri ağaca baxa-baxa donub qaldı. Bu ağac tut ağacı idi. Diqqətlə baxdı. Tut ağacının gövdəsi güllələrdən dərmə-deşik olmuşdu. Bədənindən elə bil cərəyan keçdi. Saysız-hesabsız güllə “yarasına” baxmayaraq ağac qurumamışdı. Novruz adından göründüyü kimi Novruz bayramı günü anadan olmuşdu. Ona görə də adını atası Məlik, Novruz qoymuşdu. Atası və anası bir neçə il evli olmalarına baxmayaraq övladları olmurdu. Bu səbəbdən də kənddə yaranmış söz-söhbətdən uzaq olmaq, həmçinin müalicə almaq məqsədilə Bakıya köçməyi qərara aldılar. İkisi də eyni fabrikdə işə düzəldilər. Bir neçə ay kirayədə yaşadıqdan sonra, ailə yataqxanasında onlara otaq verdilər. Hər şey öz qaydasında gedirdi. Şənbə günü idi, səhər yeməyini elə təzəcə yeyib çay içirdilər ki, qapı döyüldü. Qapını Məlik özü açdı. Gələn adam bildirdi ki, onu həmkarlar təşkilatının sədri təcili çağırır. İçəri gəlib yoldaşını çağırdı:

- Səlmi.

Yoldaşının adı Səlminaz olmağına baxmayaraq uşaqlıqda olduğu kimi yenə də Səlmi deyə çağırırdı. Cavab gözləmədən yenə səslədi:

- Səlmi, ay Səlmi. Məni “həmkarlar” çağırır, fabrikə gedirəm.

– İstirahət günüdür,sənsiz darıxacağam.

- Niyə darıxırsan? Uzağı iki saata qayıdıram.

Səlminaz üzündə təbəssüm dilləndi:

- Deyirəm neçə vaxtdı qadın məsləhətxanasına getməmişəm. Necə bilirsən, gedimmi? Vaxtım da boş keçməsin.

- Lap yaxşı. Onda hazırlaş.

Evdən birgə çıxmaqlarına baxmayaraq, hərəsi bir səmtə getdi. Hardasa bu "ayrılıq"dan təxminən iki saata yaxın vaxt keçdi. Qayıdan vaxtı yataqxananın girişində rastlaşdılar. İkisinin də üzündə sevinc var idi. Ətrafdakılara heç biri fikir vermirdi. Özlərindən asılı olmayaraq qucaqlaşdılar, ikisi də birdən dilləndi:

- Sənə şad xəbərim var.

Bu qoşa səs elə bil ilahi səs idi. Hər ikisi sehrlənmişdi. Üzbəüz dayanıb bir-birlərinin əlindən tutub donub qalmışdılar. Heç biri dillənməyə ürək etmirdi. Nəhayət, sükutu Səlminaz pozdu. Buna heç sükutu pozmaq da demək olmazdı.Titrək səslə, pıçıltı ilə deyilən sözləri ancaq bircə Məlik eşitdi:

- Məlik.

Bir neçə saniyəlik fasilədən sonra yenidən o titrək səs bir də eşidildi:

- Məlik, ay Məlik, gözün aydın, sən ata olacaqsan.

Qəribədir bu xəbəri Məlik çox sakit qarşıladı. İstəmirdi ki, onların səsini kimsə eşitsin. Səlminaz elə bil öz səsini Məlikə ötürmüşdü. Məlik də eynilə titrək və pıçıltılı səslə dilləndi:

- Səlmi,ay Səlmi, bizə yeni tikilmiş binada mənzil veriblər.Bu həftə köçürük.

… Məlik və Səlminaz artıq onlara verilmiş mənzilə köçmüşdü. İstirahət günləri Məlik evdə duruş gətirə bilmirdi. Bakıya gəlməyinə peşman deyildi. Amma isti yay günlərində onu kənd həyatı özünə çəkirdi. Günlər keçir, Məlik də yeni məhəlləyə alışırdı. Novruz bayramı idi. Hər ikisi köməkli novruz süfrəsini hazırlayıb masa arxasında oturmuşdu. Qonaq gözləyirdilər. Amma heç özləri də bilmirdilər ki, kimi gözləyirdilər. Birdən Səlminaz diksindi və üzünü Məlikə tutaraq həyacanla dilləndi:

- Məlik, tez təcili yardıma zəng vur, körpə qonağımız gəlir.

Məlik əl-ayaq açmışdı. Elə sabahı günü əlində bir ağac qələmi gətirib oğlunun adına həyətdə əkdi. Bu ağacla çox adam maraqlandı. Məlik isə hamıya təbəssümlə eyni cavabı verirdi:

- Bu, tut ağacıdır. Əkmişəm ki, övladlarımız meyvəsini yesinlər, kölgəsində də sərinlənsinlər. Alma, armud ağacı əksəm hamıya çatmaz. Tut belədir ki, hamıya çatacaq.

Novruz böyüdükcə tut ağacı da böyüyürdü. Bütün məhəllə uşaqları hamı tut ağacının altına yığılırdı. Kim-kimi axtarırdısa daha heç yerə yox, elə bu ağacın yanına gəlirdi. Adını da qoymuşdular Novruzun ağacı.

…Novruz gözünü tut ağacından çəkmirdi. Əsgər yoldaşları onu birinci dəfə idi ki, görürdülər. Növbədə onlar idilər. Tanımadıqları əsgər isə könüllü döyüşə qöşulmuşdu. Heç kim onu xəyaldan ayırmaq istəmirdi. O isə məhəllə uşaqlarıyla tut ağacında qaçdı-tutdu oynayırdı. Elə bil ki, yerdə yer qəhət idi. Necə oldusa birdən Novruzun ayağı budaqdan sürüşdü və diksinərək xəyaldan ayrıldı. Gah tut ağacındakı güllə yerlərinə, gah da yanındakı əsgərin üzünə baxırdı. Cəbhənin də öz qanunları var.Hamını öz qanunlarına tabe edir. Bir-birlərini dillə başa düşə bilməyənlər, cəbhədə sözsüz-söhbətsiz bir-birlərini başa düşürlər. Əsgər dilləndi:
– Hər gün səhər-səhər, hava açılar-açılmaz atəşkəsi pozurlar. O qədər əclafdırlar ki, gördüyün bu ağacı da gülləyə tuturlar.

Bu cavabdan həm qaşları, həm də yumruğu düyünləndi. Heç bir söz demədən əsgərin boynundan asılmış durbini alıb, sürünə-sürünə səngərdən aralandı və təxminən bir saatdan sonra geri qayıdaraq durbini əsgərə qaytarıb kazarmaya qayıtdı. Bütün günü hava qaralınca əsgərlərə təlim keçdi. Axşam yatmaq komandası verilməyinə baxmayaraq yuxusu gəlmirdi. Gözünü yuman kimi yaralı tut ağacı qabağında dayanırdı. Nə qədər yatmağa çalışsa da xeyri olmadı. Dikəlib yerinin içində oturdu. Yenə tut ağacı gözünün qabağına gəldi. Amma çox qəribədir.Sanki tut ağacının budaqları yox idi. Budaqları ona tərəf uzanan əllər əvəz etmişdi. Bu əllər ondan imdad istəyirdi. Get-gedə həyacanı artır,ürəyi də tez-tez döyünürdü. Səbri tükəndi. Sıxılmış dodaqlarından çıxan sözü belə özü eşitmədi, amma ürəyinin səsini eşitdi:
- Səni xilas edəcəyəm. Səni xilas edəcəyəm. Səni xilas edəcəyəm.Geyindi və kazarmadan çıxanda növbətçi əsgərin gözlərinin içinə düz baxaraq dedi:

- Qayıdacağam. Mütləq qayıdacağam.

Növbətçi əsgərin gözü qaranlıqda yox olana kimi Novruzu izlədi. Növbətçi əsgər həyacanlı idi. Gah bayıra çıxır, gah da içəri girirdi. Xeyli vaxt keçmişdi, Novruz gəlib çıxmırdı. Əsgərin gözləri hərbi hissənin

girəcəyinə ilişib qalmışdı. Nəhayət, gözünə yaxınlaşmaqda olan bir qaraltı dəydi. Yox, bu, Novruz deyildi. Gələn adam lap sərxoş adamlar kimi gəlirdi ,ara-bir səntirləyərək yıxılır, sonra zorla qalxıb yeriyirdi. Əsgər hazır vəziyyət almışdı. Qaraltı yaxınlaşmaqda idi.Əsgər əlindəki fanarı “qaraltı”nın üzünə tutdu.Qaraltını zorla da olsa tanıdı. Onda təqsir yox idi. Novruz tanılası halda deyildi.Üst-başı ,üzü-gözü toz-torpaq və qan içində idi.Əsgər ona üz-gözünü yumağa, üst paltarlarını çıxarmağa və yerində uzanmağa kömək etdi. O, ürəyində ürəyilə danışırdı. Tut ağacına hesabat verirdi:

– Hə, tut ağacı, səni xilas etdim, çox çəkməz Qarabağı da azad edərik.

Beləcə, tut ağacı ilə danışa-danışa onu yuxu apardı. Bu yuxu necə gözəl , necə şirin idi.

…Tut ağacının yaralarının yeri qalsa da sağalıb,daha da böyüyüb qol budaq atıb. Bolluca tut gətirib.Tutlar daha iri və ətli idi. Baxanda adamın ağzı sulanırdı. Ağacın yarpaqları isə xışıltılı səslə Novruzu səsləyirdi:

- Novruz, ay Novruz, mən bu tutu sizin məhəllə üçün yetişdirmişəm. Gəlin bolluca yeyin.

Məhəllə uşaqları da hardansa peyda olub tut ağacına dırmaşdılar. Novruz da onlara baxıb dırmaşdı. Uşaqlar bir - birlərinə atmaca ata-ata, ağızlarını marçıldada-marçıldada, ləzzətlə tut yeyirdilər. Amma bu uşaqlar necə deyərlər bığlı, saqqallı idilər.Balkondan anasının səsi gəlirdi:

- Novruz, ay Novruz, hardasınız?

- Ana, biz Qarabağdayıq. Tut yeyirik! Gəl sən də ye.

Qəfil səsdən diksinərək oyandı:

- Əsgər qalx!

Səhər idmanı və yeməkdən sonra bir qədər keçmişdi ki,leytenantın gur səslə verdiyi əmri hamısı eşitdi:

- Əsgər,düzlən!

Bir neçə dəqiqəyə hamı cərgədə idi. Novruz cərgədə dayansa da, ürəyində götür-qoy edirdi, fikri gördüyü yuxuda qalmışdı:

- Mənim yuxularım həmişə çin çıxır.Böyük bir avtobus tutub bütün məhəllə uşaqlarını Qarabağa tut yeməyə gətirəcəyəm. Bu an leytenant növbəti əmri verdi:

- Fərəqət! Diqqət mərkəzə!

Komandirə tərəf dönüb sağ əlini gicgahına apardı:

- Cənab polkovnik, növbə ərzində nəzarət etdiyimiz cəbhə xəttində nisbi sakitlik olmuş, atəşkəs pozulmamışdır.

## Damsız ev



Rayona kim gəlirdisə girəcəkdə hamının diqqəti bir həyətdə daxma və onunla yanaşı müasir şərq memarlıq üslubu ilə tikilmiş iki mərtəbəli ev diqqəti çəkirdi. Marağına səbəb olan səbəb isə bu gözəl binanın damının olmaması idi. Rayona ezam olunmuş gənc jurnalisti də maraq üstələdi. Sürücüdən xahiş etdi ki, həmin binanın qabağında saxlasın. Maşından aşağı düşüb küçə qapısını döydü. Qapını üzü nurlu yaşlı qadın açdı. Onu da sürücünü də içəri dəvət etdi. Heç biri etiraz etmədi. Otaq çox sadə bəzənmişdi.Divarlar dağ şirəsi ilə şirələnmiş və divar boyunca təxminən eni bir metr olan güləbətin parça vurulmuşdu. Döşəməyə Dərbənd palazı sərilmiş və üstünə çox da böyük olmayan nalçalar düzülmüşdü.Çox çəkmədi ki, samovar çayı hazır oldu. Jurnalist və sürüçü rahat oturub çay içirdilər. Ətirli çay onlara ləzzət etmişdi. Tələsmək bilmirdilər. Bu otaq jurnalistə çox doğma gəlirdi. Fikrə getmişdi. Onun xəyalları Qarabağda dolaşırdı. Dolaşa-dolaşa gəlib Laçının Əhmədli kəndindəki babasının evində dayandı. Bu ev babasının evlərini xatırladırdı. İndi başa düşdü ki, bu ev niyə ona doğma gəlir.Elə bil hansısa bir sehirli qüvvə həmin evi ordan bura gətirib yerləşdirib. Xəyallardan ayıldı. Üzünü ev sahibinə tutaraq dilləndi:

- Xala, olar Sizə bir sual verim?
- Qızım, əlbəttə olar. Niyə olmur?
- Həyətdəki evin damı niyə yoxdur? İcazə ver atama deyim vurdursun.

O, bu sualı, nə də ki, belə təklifi tanımadığı və birinci dəfə gördüyü qonaqdan gözləmirdi:

- Qızım, elə bilmə ki, bu evin damı imkansızlıqdan qalıb. Fikirləşdiyin kimi deyil, pulum da var, xeyirxah insanlar da kömək etmək itəyiblər. Razı olmamışam. Oğlum Qarabağa müharibəyə gedib,hələ gəlib çıxmayıb. Gedəndə dedi ki,evin damını gəlib özü vuracaq. İstəmirəm ki, oğlumun evinin damını başqa adam vursun. Gəlib özü vurar.

Sükut çökdü. Ananın gözləri yol çəkirdi. Bu ümid dolu gözlər belə deyirdi:– Oğlum mütləq gələcək.

## Ata əmanəti



"N" saylı hərbi hissədə üç nəfər xüsusu təyinatlı əsgərə məxvi tapşırıq verilərək kəşfiyyata göndərilmişdi. Bir yerdə çıxsalar da ayrı-ayrı istiqamətlərə getmişdilər. Artıq kəşfiyyatı yerinə yetirmək üçün verilmiş vaxtdan xeyli keçməsinə baxmayaraq ikisi geri qayıtsa da, İntiqamdan heç bir xəbər yox idi. Səhərin açılmasına az qalmışdı. Komandir get-gedə həyəcanlanırdı. Təcili olaraq kəşfiyyat rəhbərlərini məşvərətə çağırdı. Onun axtarışı üçün iki nəfərdən ibarət təcrübəli kəşfiyyatçı ayrıdı. Kəşfiyyat qrupu İntiqamın getdiyi istiqamətə-Murovdağa tərəf yol aldı. Necə deyərlər gecənin qaranlığında göz-gözü görmürdü. Ay da buludların arxasında gizlənmişdi. Üzlərinə qarı çırpan küləyin vıyıltısına çaqqal və canavarların da ulartısı qarışaraq qorxunc bir gecə təəssüratı yaradırdı. Amma belə vəziyyət kəşfiyyat üçün əlverişli idi. Hər tərəfi diqqətlə nəzərdən keçirirdilər. İtmiş kəşfiyyatçını tapmaq ümidləri get-gedə azalırdı. Bir çıxış yolu vardı: təmas xəttini keçmək. Hər ikisi təmas xəttini keçməyi qərara aldı. Çox təhlükəli yol seçmişdilər. Amma başqa çarələri də yox idi. Mütləq İntiqamı tapmalı idilər.Birinci səbəb hərbi əmr idi. İkincisi isə o hamının dostuydu. Bir də hər biri özü-özlüyündə fikirləşirdi ki, onlar da bu cür çətinliyə düşə bilərlər. Bir-birlərindən müəyyən qədər məsafə saxlayıb, asta-asta sürünürdülər. Bunu ona görə edirdilər ki, mina partlayarsa ikisi də həlak olmasın. Kiçik bir qayanın yanından sürünüb kecərkən üzərini qar örtmüş, bükülmüş bir vəziyyətdə bir nəfər aşkar etdilər. Diqqətlə baxdılar. Bu İntiqam idi. Onun sağ olub olmamasını heç biri ayırd edə bilmədi. O, hər iki əli ilə ürəyini tutmuş,dizlərini də qarın nahiyyəsinə sıxmış vəziyyətdə şaxta vuraraq qıc olmuşdu. Düşünməyə vaxt yox idi.

...Yaralını təcili hərbi hospitala çatdırdılar. İlkin müayinədə məlum oldu ki, sağdır. Amma həyatı təhlükədə idi. Vaxt itirmək olmazdı.Yaralını təcili yardım helikopteri ilə Bakıya hərbi xəstəxanaya çatdırdılar. Həkim heyəti təcili işə başladı. Baş cərrah bildirdi:

- Əsgər böyründən və ehtimal ki, sinəsinin sol hissəsindən də yaralanmışdır.

Böyründəki yara açıq-aşkar bilinirdi. Ona görə də həkim cərrahlardan ikisinə tapşırıq verdi:

– Siz böyrək nahiyyəsilə məşğul olun. Mən isə köməkçimlə sinəni əməliyyat edəcəyəm.

Çətinliklə də olsa yaralının əllərini sinəsindən araladılar. Təəccübləndilər. Əsgərin sinəsində güllə yeri yox idi.Tez paltarını qayçılayıb çıxardılar. Həkimlər mat qalmışdı.Yaralının sinəsinin üstündən, paltarın altından səliqə ilə bükülmüş Azərbaycan Bayrağı çıxdı. Bayraq qanlı idi. Amma qan ləkəsi təzə yox, köhnə idi. Onlar üçün müəmmalı bu idi ki, əsgər yaralanarkən güllə dəyən böyrünü deyil, iki əli ilə sinəsini tutmuşdu. Əməliyyat uğurla keçdi.Yaralı isə hələ də özünə gəlməmişdi. Cərrahlar yaralı əsgərin vəziyyəti barədə baş həkimə məlumat verdilər. Diqqətlə dinləyən baş həkim fikrə getmişdi. Nəhayət, dilləndi:

- Əsgər əsl igidlik göstərib. O özünü yox, vətənimizin hamımız üçün müqəddəs olan bayrağını qoruyub. Bayrağı palataya gətirin. Elə yerdən asın ki, gözünü açarkən birinci Bayrağı görsün.

Günlər keçirdi. Xəstə hələ də özünə gəlmirdi. O, bütün hospitalın sevimlisinə çevrilmişdi. Həkimlər də, xəstələr də onunla maraqlanırdılar.

İntiqam Xocalı faciəsi günü anadan olmuşdu. Səhəri günü bu faciədən hamı kimi atası Osman da xəbər tutmuş və Qarabağın azadlığı uğrunda könüllü olaraq müharibəyə getmişdi. Gedərkən onu yola salmağa anası və bacısı gəlmişdi. Ananın sual dolu nəzərləri oğluna dikilmişdi.Osman çox arif adam idi. Anası dillənməsə də onu başa düşürdü.

- Ana, oğlumu inşallah sağ-salamat gəlib görərəm. Adını da İntiqam qoyuram.

- Ay bala, bəs deyirdin oğlum olsa atamın adını qoyacağam.

- Yox ana, vətənin bu günündə bunu edə bimərəm. Böyüyəndə özü də bilsin ki, onun adı niyə İntiqam qoyulub.

Hərbi xəstəxanadakılar da, tanış-biliş də sevinirdi. Əsgər hələ özünə gəlməsə də gündən-günə yaxşılaşırdı. Hərəkətsiz olsa da hərdən yanındakıların danışıqlarını eşidirdi:

– Allah qoruyub.

- Sağ qalması möcüzədir.

- İnamı, iradəsi güclü olduğu üçün sağ qalıb.

- Anası namaz üstə imiş.

Kimsə də palatanın yanından keçərkən zümzümə edirdi:

- Şuşanın dağları, başı dumanlı…

O isə ürəyində belə oxuyurdu:

– Şuşanın dağları, başı dumansız… Eşitdiyi bu sözlər onun ümidlərini daha da artırırdı. Gözlərini açmaq istəyirdi. Lakin göz qapaqları o qədər ağır idi ki, sanki kirpiklərindən dünyanın yükü asılmışdı. Nəhayət, az da olsa kirpiklərini aralaya bildi. Ən əvvəl onun nəzərləri Azərbaycan Bayrağına dikildi. Ani olaraq onun kipriklərindəki ağır yükü elə bil ki sehrli bir qüvvə yox etdi. Gözlərini geniş açdı.Bəli, divardan asılmış Bayraq onun sinəsində həmişə gəzdirdiyi Bayraq idi. O, bu Bayrağı tanımaya bilməzdi. Bayraq heç vaxt üzünü görmədiyi atasından yadigar qalmışdı. Atasına onu görmək qismət olmamışdı. O, erməni işğalçılarına qarşı döyüşdə şəhid olmuşdu. Bayrağın üzərindəki ləkələr də atasının qanı idi. Bayrağı yumağa anasının əli gəlməmişdi. İntiqam Bayrağa diqqətlə baxdıqca sevinirdi. Ona görə sevinirdi ki, Azərbaycan Bayrağını qorumuş, düşmən gülləsi ona dəyməmişdir.Onun bu sevincinə həkimlərin, tibb bacılarının və xəstələrin də göz yaşı qarışmışdı.

# ƏLİNİN MÜQƏDDƏS ƏMANƏTİ

Çinarlı kəndində böyükdən kiçiyə kimi hamı sevinirdi. Cəbhədən əsgər qayıtmışdı. Dörd ildən yuxarı olan müddətdə kəndə sağ və salamat qayıdıb gələn birinci əsgər idi. Bu qaranquş Ömər idi. Hamının deyib gülməsinə, əl-ayaq etməsinə baxmayaraq o, susurdu, bir kəlmə olsa da belə danışmırdı. Ətrafındakılar nə qədər çalışsalar da xeyri olmadı. Ona verilən sorğu-suala çox qısaca, necə deyərlər can dərdi cavab verirdi. Elə bil gülüşünü, danışığını Qarabağda – cəbhədə qoyub gəlmişdi. İyirmi üç yaşı hələ



tamam olmamasına baxmayaraq, tanımayanlar ona 35-40 yaş verərdilər. Saçının ağı qarasından çox idi. Səhərisi günü hərbi komissarlığa qeydiyyata gedəcəkdi. Bacısı Fatimənin təkidi ilə əsgər geyimini çıxararaq ütüləməyə vermişdi. Bu məclisdə ən çox canfəşanlıq edən, deyib-gülən də elə Fatimə idi. Göz aydınlığına gələnlər yavaş-yavaş dağılışırdı. Ömər onun üçün süzülmüş çay içməli olmağına baxmayaraq içməyə tələsmirdi. Tək qalmaq istəyirdi. Elə bil illər uzunu bu kəndin səsi, küyü, toyu, düyünü üçün darıxan o deyildi. Nə üçün tək qalmaq istədiyinin səbəbini bilmirdi. Yox o tək deyildi, öz xəyallarıyla birgə idi. Bu xəyallar idi ona rahatlıq verməyən. Əslində bunlar xəyal deyil, geridə qalmış reallıq idi. Ölümün belə bu keçmişi, bu reallığı onun yaddaşından silməyə gücü çatmayacaqdı. Ölsə də belə bu reallıqlar onun ruhunun yaddaşında qalacaqdı. O həmişəlik bu yaddaşı daşımağa məhkum olunmuşdu. Elə bu vaxt bacısı Fatimə əlində ağ parcaya nə isə bükülü yavaşca Ömərə yaxınlaşdı.

- Qardaş, bu nədir? Diksindi.

Fatimə heç özü də səbəbini bilmədən bükülünü açdı. Elə bil hansısa məlum olmayan bir qüvvə bükülünü açmağı ona əmr etmişdi. Öməri sanki bu an ildırım vurdu. Bükülü neçə il bundan qabaq bükülən idi. Həmişə onu ürəyinin üstündə, qoltuq cibində saxlayırdı. Bu bükülü ona cəbhə yoldaşı olmuş və birinci dəfə idi ki, açılırdı. Quruyub qalmışdı. Bacısına cavab verməkdə iqtidarında deyildi.

…Əli və Ömər hərəsi Azərbaycanın bir bölgəsindən idilər. Onlar kəşfiyyat bölüyünə gəldikləri gündən dostlaşmışdılar. Təlimlər qurtardıqdan sonra kəşfiyyata bir yerdə gedirdilər. Yenə də növbəti hərbi tapşırıq alaraq kəşfiyyata yollandılar. Düşmən çox hiyləgər və məkrli idi. Havadarlarından istifadə edərək güclü silahlanmışdı. Demək olar ki, minalanmamış cığır, yol qalmamışdı. Əli və Ömər üçün hərəkət etmək çox çətin idi. Düşmən kəşfiyyatı da duyuq düşmüş və müdafiəni qat-qat artırmışdı. Hərbi tapşırığı mütləq yerinə yetirməli idilər. Bir neçə gün keçməsinə baxmayaraq heç bir məlumat əldə edə bilməmişdilər. Ancaq gecələr hərəkət edirdilər. Bu gecənin qaranlığına duman da qarışmışdı. Kəşfiyyat üçün münasib vaxt idi. Çörək yeyib davam etməyə qərar verdilər. Su və ərzaq ehtiyatı tükənmişdi. Əli əsgər çantasından kiçik bir ağ parça çıxarıb otun üstünə süfrə əvəzi sərərək əsgər payını çıxardı. Cəmi bir dilim quru çörək qalmışdı.

– Bölüb yeyək. Atalar deyib ki, bir tikə bir dağı aşırar.

Elə bunu demişdi ki, sükut pozuldu. Mərmilərin partlayışından yer titrəyirdi. Elə bil bu dəqiqə yerin bağrı çatlayacaqdı. Süfrə ortalıqda qaldı. Nə edəcəklərini hələ müəyyənləşdirib bir qərara gəlməmişdilər. Yerə uzanmışdılar. Birdən Əli nə isə fikirləşərək cəld düşmənin səngərinə tərəf sürünmıyə başladı. Ömər çağırdı:

- Əli, hara gedirsən? Belə şeyləri çox görmüşük. Qayıt, çörəyimizi yeyib sonra gedək.

- Ömər, sən ye. Mən sonra gəlib yeyərəm.

- Qardaş, sən nə danışırsan? Bu da təzə çıxdı. Bilmirsən ki, mən sənsiz bir tikə də yemərəm.

Əli iki barmağını qoşalayaraq qulağını göstərərək , sonra isə şəhadət barmağını dodaqlarına yapışdırdı. Bu hərəkəti ilə yerində qal, “sus, düşmən eşidər” işarəsini verərək sakitcə pıçıldadı:

- Yaxşı, onda gözlə, indi qayıdıram, bir yerdə yeyərik.

- Oldu, gözləyirəm. Qayıdarsan bir yerdə yeyərik. Sənsiz bu tikəni yedi yoxdu.

- Qayıdacağam.

- Əli!

- Dedim ki, qayıdacağam.

Ömər quru çörəyi həmin “süfrəyə” büküb cibinə qoyub bir daha açmadı. Özünə söz verdi ki, o bükülünü Əli gələndə açacaq və iki cəbhə qardaşı birlikdə yeyəcəklər.

Fatimənin səsi onu xəyaldan ayırdı.

- Qardaş, səninləyəm.

Ömər dərindən nəfəs alaraq, dilləndi:

- Bacı, bu çörək əmanətdir-Əlinin müqəddəs əmanəti. Gözləyirəm ki, gəlsin bir yerdə yeyək.

Fatimə titrək səslə soruşdu:

- Qardaş, Əli gələcək?

- Bacı, söz verib ki, gələcək. Söz veribsə mütləq gələcək.

## Qaranquşun Xocalı arzusu



Yenə yaz gəlmişdi.Uçuq-sökük bir evin divarına üç qaranquş qondu.Bu qaranquşlardan biri ana, ikisi də bala idi.Xeyli vaxt keçməsinə baxmayaraq ana qaranquş susurdu.Nəhayət,bala qaranquşlardan birinin səbri tükəndi:

– Ana,ay ana,bizim burada nə işimiz var,bu qədər oturmuşuq?Yorulmuşam,həm də acmışam.Gəl uçub gedək evimizə.

Ana qaranquş elə bil bu sözə bənd idi. Bala qaranquşa bir söz deyə bilmədi.Əvəzinə göz yaşları tökməyə başladı.Bala qaranquş yenə də dilləndi.

– Ana, mən sənə məgər ağır söz dedim?Nə deyirəm ki, uçaq gedək evimizə.

– Yox, ay bala,yox.Sən mənə ağır söz demədin.Axı, elə bura bizim öz evimizdir.

Anasının bu cavabına bala qaranquş çaşıb qaldı.

– Ana, onda indi yaşadığımız yer evimiz deyil?

– Yox,can bala,indi yaşadığımız yer evimiz deyil.Əsl evimiz elə buradır,ata – babadan da elə bura olub.

– Ana,bəs bunu bu vaxtacan bizə niyə deməyib indi deyirsən?

– Ay bala,necə deyəydim,axı siz uşaq idiniz.İndi ,maşallah böyümüsünüz,qanad açıb göylərdə uçursunuz.Acını,şirini indi başa düşürsünüz.

– Ana,axı burda bütün kəndin evləri dağılıb.Heç kim yoxdu. Bəs burda yaşayanlar hanı?

Ana qaranquş dərindən ah çəkdi.Susdu.Bu sükut xeyli çəkdi.Nəhayət, özündə güc tapıb danışmağa başladı.

– Balalarım,bura Azərbaycanın Xocalı kəndidir.Bir vaxtlar burada insanlar yaşayırdı.Gözəl evlər,bağlar,meşələr,bulaqlar göz oxşayırdı.Bax gördüyünüz bu uçuq – sökük evdə biz insanlarla birlikdə yaşayırdıq.Həyətdə bir qocaman tut ağacı da vardı.Bütün yayı bülbüllər bu ağacda oxuyurdular.İndiki kimi yadımdadır,biz hər yaz bu kəndə uçub gələndə uşaqlar sevinclərindən atılıb – düşərdilər.Hamı bir – birinə

gəlişimizi sevinclə çatdırırdı.Bu evdə atanızla birgə yuva qurmağa başlayanda bir yaşlı qadın oğlunu muştuluqladı.

– Oğul,gözün aydın.Qaranquşlar sənin evində yuva qururlar.

Bir yaz da uçub gələndə buraları bu vəziyyətdə gördük.Məcbur olub, indi yaşadığımız yerə köçdük.Çünki biz qaranquşlar insanlarla bir yerdə yaşamağa alışmışıq.Onlarsız burada yaşaya bilməzdik.Buraları tərk etmək nə qədər acı olsa da çarəsiz idik.Çox əziyyət çəkdik.İnsafən,indi yaşadığımız yerdə də insanlar bizə hörmət edirlər.Amma bura bizim ata – baba yurdumuzdur.Ona görə sizi bura gətirmişəm ki, tanıyasınız.Hər il yazda ümidlə birinci bura gəlirəm.Təəssüf ki,neçə yazdır gələndə buraları belə halda görüb çox məyus oluram. İnanıram ki,bir də gələndə yenə burada əvvəlki tək Xocalının sakinlərini, evləri, bağları, meşələri, bulaqları görəcəyəm. Yenə də biz onların, onlar da bizim gəlişimizə sevinəcəklər.

## Müqəddəs duz

Altay bu gün əsgər gedirdi.Onu yola salmağa ailə üzvləri və yaxın dostları gəlmişdilər.Hərbi komissarlığın işçısi avtobusa minmək üçün çağırışçıların siyahısını oxuyurdu.Altayın da adı çəkildi.O hamı ilə vidalaşdı. Ən axırda anası Rəfiqəyə yaxınlaşıb onu qucaqlayaraq üzündən dəfələrlə öpdü.

-Ana,məndən nigaran qalma.Əsgərliyimi bitirib geri qayıdacağam. Sağ ol,ana.

Aralanmaq istədi.Lakin anası onun əllərindən bərk-bərk tutmuşdu.Buraxmaq istəmirdi.Altay bir də anasını qucaqlayıb ondan aralanmaq istədi.Anası:

-Altay,bir dəqiqə ,dayan.

Cibindən balaca bir bükülü çıxarıb ona verdi:

– Oğul, həmişə bu bükülü üstündə saxla,səni qoruyacaq.

Altayın adı təkrarən səsləndi.Altay bükülüdə nə olduğunu belə soruşa bilməyib cibinə qoyub cəld avtobusa mindi.Yola düşdülər. Beləliklə Altayın əsgər həyatı başladı.Artıq iyirmi gün idi ki,xidmət edirdi.

Hərbi hissədə “düzülüş” komandası verildi.Növbətçi zabit əlindəki siyahıya baxıb Altayın və ondan başqa iki nəfərin adını çəkdi.Onlara hərbi hissənin komandirinin yanına getməyi əmr etdi.Komandir bildirdi:

-Siz kəşfiyyat təlimlərinə göndərilirsiniz.

Altaygil kəşfiyyat təliməlċrinə başladılar.İstirahət günü idi. O, əsgər paltarlarını ütüləməyi qərara aldı. Birinci növbədə ciblərini boşaltmağa başladı.Əlinə əsgərliyə yola düşəndə anasının verdiyi bükülü gəldi.Xidmət etdiyi müddətdə bir dəfə də olsun onu açmamışdı. İndi də əlində bükülü çaşıb qalmışdı: ”Açım,ya açmayım? ” Bükülünü açmağa qərar verdi. Amma açmağa ürəyi gəlmirdi.Bilirdi ki,anası verdiyi bu bükülünün içərisində nədirsə həqiqətən onu qoruyacaq. Açmaq istəmədi. Ona elə gəlirdi ki, bu bükülünü açsa sehirli qüvvəsini itirəcək. Qapı qəflətən açıldı. Əsgər yoldaşı Barat içəri girdi. Gördü ki,Altay əlində bir bükülü donub qalıb, özündə deyil. verdiyi salamı belə eşitmədi. Ona yaxınlaşıb ucadan dilləndi:

- Ay Altay, səninləyəm.

Altay bu səsdən diksindi.

– Nə olub?

- Altay, mənə yox,sənə nə olub? Əlindəki nədir?

- Bunu mənə əsgər gələndə anam verib. Deyib ki, üstündə saxla, bu səni qoruyacaq.

- Bəs onun içindəki nədir?

- Bilmirəm.

- Necə yəni bilmirəm?

- Bilmirəm də. Bilmirəmin necəsi olur?

- Onda aç baxaq görək nədir?

- Qardaş, üz vurma, açan deyiləm.

- Uşaqlıq etmə, aç baxaq.

Baratın inadından sonra elə özündə də güclü maraq oyandı ki, görəsən bu bükülünün içindəki nədir? Bükülünü açmaq istədi. Yenə ürəyi gəlmədi.Bükülünü Barata uzadıb dedi:

- Yaxşı, onda sən aç.

O, bükülünü çox ehtiyatla açmağa başladı. Elə açırdı ki, elə bil mina zərərsizləşdirirdi. Birdən ikisinin də nəzərləri bir-birinə dikildi. Bükülüdəki duz idi. Hər ikisi susmuşdu. Barat bükülünü necə açmışdısa eləcə də səliqə ilə büküb Altaya qaytardı.

Altaygil dədə-babadan Bakının Masazır kəndində yaşayırdılar.Altay uşaqlıqda ata-anasından daha çox babası və nənəsinin yanında olurdu. Babası duz satmaqla məşğul idi. Dəvəyə duz yükləyib Bakıya , həmçinin Azərbaycanın digər rayon və kəndlərinə satmağa aparırdı. Dolanışıqları əsasən duzdan və balıqdan çıxırdı. Babası çox vaxt gölə duz gətirməyə gedəndə onu da özü ilə aparırdı. Duz gölünə çatanda babası həmişə özünün və onun yol gəldiyi ayaqqabıları çıxarıb özü ilə gətirdiyi ayaqqabılarla dəyişirdi. Bir dəfə Altay babasından soruşdu:

-Baba,biz bu gölə gələndə niyə ayaqqabılarımızı dəyişirik?

Babası bu suala gec cavab verdi. Yadına uşaq vaxtı öz babası ilə gölə gəldiyi günlər düşdü.Axı eyni sualı o da babasına vermişdi.

-Baba, ay baba.

Nəvəsinin səsi onu xəyallardan ayırdı. Ona babasının bu suala verdiyi cavabı nəvəsi üçün təkrarladı.

-Bala, bu duz gölü müqəddəsdir. Murdarlamaq olmaz.Ona görə də ayaqqabılarımızı dəyişirik. Dədə-babalarımız and içəndə duz-çörəyə and içiblər.

… Artıq Altaygilin təlimləri başa çatmışdı. Komandir Altayı və onunla birgə o biri iki nəfəri də yanına çağırdı:

-Siz kəşfiyyata göndərilirsiniz. Cəbhə xəttində atəşkəs düşmən tərəfindən müxtəlif istiqamətlərdə tez-tez pozulur. Siz düşmənin atəş açdığı yerləri dəqiqləşdirib xəritədə qeyd etməlisiniz. Sizə inanıram. Rabitə olmayacaq, müstəqil hərəkət edəcəksiniz. Vaxt məhdudiyyəti də yoxdur. Ancaq hərbi tapşırığı yerinə yetirdikdən sonra qayıdacaqsınız. Sizə uğurlar.

Altay ixtisasca topoqraf idi. İndi başa düşdü ki, bu qədər əsgərin içərisindən məhz niyə onu seçiblər. Onlar üçün ayrılmış ərzağı alıb yola

düşdülər. Yollarla deyil, ancaq cığırlarla hərəkət edirdilər. Danışmaq olmazdı. Bir-birləri ilə jestlərlə danışırdılar.Acmışdılar. Nahar etmək işarəsi verildi. Münasib yerdə süfrə açıb iştahla yeməyə başladılar.Barat süfrədə nəyisə axtarırdı. Soruşdu:

Nə axtarırsan?

Duz axtarıram. Süfrədə duz yox idi. Ərzaq çantasına baxmalı oldular. Amma nə qədər axtarsalar da tapılmadı. Məlum oldu duz yaddan çıxıb. Barat sakitcə Altaya yaxınlaşıb zarafatla, pıçıltı ilə onun qulağına dedi:

-Dolamısan bizi?Duzu qoymusan cibinə, özün də də deyirsən ordan duzu ver.

Başqa çarə yox idi. Cibindən duzu çıxarıb süfrəyə qoydu. Günlər keçirdi. Hərbi tapşırığı tam yerinə yetirə bilməmişdilər. Vaxt uzandıqca ərzaq da azalırdı. Duzdan qənaətlə istifadə edirdilər. Hər dəfə çörək yeyəndə hamı ürəyində Altayın anasını yada salır, ona minnətdarlıq edirdilər. Altay da ürəyində anasına deyirdi:

-Sağ ol,ay ana. Sən necə də diqqətlisən.

Nəhayət, kəşfiyyat dəstəsi hərbi tapşırığı yerinə yetirib geri qayıdırdı. Arabir Altay əlini ürəyinin üstünə aparırdı. Bundan narahat olan Barat ondan soruşdu:

– Altay,nə olub? Ürəyin səni narahat edir?

-Yox qardaş, ürəyim məni narahat etmir, lap yaxşıdır,sadəcə vərdiş etmişəm,duzu yoxlayıram.

Barat gülümsədi.

Günlər keçdi. Altayın hərbi xidmət müddəti qurtardı və tərxis olundu.

Altay əsgər formasında avtobusda oturmuşdu, sərnişinlərin əksəriyyəti onu tanımasa da sağ– salamat qayıtmağı münasibəti ilə gözaydınlığı verirdi. Avtobus duz gölünün yanından keçəndə nə fikirləşdisə sürücüdən avtobusu saxlamağı xahiş etdi. Gölə yaxınlaşıb cibindəki bükülünü çıxardı. Ehtiyatla açıb içində qalan duzu gölə səpdi. Sərnişinlər təəccüblə onun bu hərəkətinə baxırdılar. Geri qayıdanda sərnişinləri intizarda qoymadı:

-Əsgər gedəndə anam mənə bu gölün duzundan bir bükülü verib. Bu gölə səpdiyim duz bütün Qarabağı mənimlə birgə gəzib.Bu duza Qarabağın ətri, ruhu,sevgisi,məhəbbəti hopub. İstəyirəm ki, bütün süfrələrdə də bu duzdan olsun.Hamıya özü ilə Qarabağ sevgisini çatdırsın.

## Səngərdə Qurban süfrəsi

.

Qurban bayramına bir gün qalmışdı. Nadir axşamçağı evə iki qoçla qayıtdı. Həyat yoldaşı İlahə onu həyətdə qarşıladı. İlahə ona təəccüblə baxırdı. Onun sualını gözləmədən dilləndi:

- Bunları qurban kəsəcəyəm.

Gördü ki,yenə də o, təəccüblə baxır.

– Nə olub sənə? Quruyub qalmısan.

- Heç nə olmayıb. Uşaqla da elə bu gün danışmışam. Onu demək istəyirəm ki, həmişə qurbanda bir qoç kəsirdin. İndi isə iki qoç gətirmisən.

- Bu sualın cavabını sənə bu gün yox,sabah deyəcəyəm.

…Nadir və İlahə əslən Qarabağdan idilər. İkisi də bir kənddə böyümüş və evlənmişdilər. Onların ataları dost idilər. Yaylağa və qışlağa bir yerdə gedirdilər. İndi isə onlar qaçqın həyatı yaşayırdı. Oğlanları Elnur bir neçə ay idi ki,Ağdamda hərbi xidmətdə idi.

Səhəri gün Nadir yuxudan tezdən durdu. Dəstəmaz aldıqdan sonra qurban duası oxuyub hər iki qoçu kəsdi. Birini doğrayıb, paylamağı İlahəyə tapşırdı. Digərini çit parçaya büküb maşınına qoydu. Üzünü İlahəyə tutub dedi:

- Balalarımız əsgərlikdədir. Düşmənlə üz-üzədirlər. Onlar bu qurbandan yeməsələr boğazımdan bir tikə belə keçməz.

Sonra mühərriki işə salıb yola düzəldi. Yollara yaxşı bələd olduğu üçün dağlar arası kəsə yolla gedib iki saatdan sonra Elnurun xidmət etdiyi hərbi hissəyə çatdı.

Hərbi hissənin girəcəyində keçid postundakı növbətçi əsgərə Elnurun atası olduğunu və komandirlə görüşmək istədiyini bildirdi. Bir neçə dəqiqədən sonra növbətçi əsgər komandirin onu gözlədiyi barədə məlumat verdi. Nadir gətirdiyi qurban əti olan bağlamanı götürüb içəri girəndə komandir artıq hörmət əlaməti olaraq onu qarşılamaq üçün kazarmanın qabağına çıxmışdı. Qucaqlaşıb bayramlaşdılar. Nadir dilləndi:

- Balalarımız üçün qurbanlıq ət payı gətirmişəm.

Komandir sevindi. Ən yaxındakı əsgərə dedi:

- Aşbazı bura çağır.

- Bir neçə dəqiqə sonra aşbaz gəlib çıxdı. Komandir aşbaza tapşırdı:

- Ağsaqqal əsgərlər üçün qurban əti gətirib. Çalış nahara kimi hazır olsun. Elə et ki,hamıya çatsın. Heç kim kənarda qalmasın.

Sonra da üzünü Nadirə tutub dedi:

- Elnur kazarmada deyil, sərhəddə növbədədir.

…Səngərdə süfrə salınmışdı. Əsgər yeməklərindən başqa menyuda olmayan xörək də də var idi. Çavuş bildirdi ki, həmin yemək qurban ətindəndir. İştahla yeməyə başladılar. Elə bu zaman vıyıltı səsi gəldi. Bu səslə birlikdə çavuşun:

– “Əsgər,uzan!”- əmri eşidildi.

Həyəcanlı saniyələr keçirdi. Vıyıltı səsini yaxınlıqda boğuq taqqıltı səsi əvəz etdi. Saniyələr keçdikcə əsgərlərin həyəcanı daha da artırdı. Partlayış səsi eşidilmədi. Çavuş başını yavaş-yavaş qaldırıb ətrafı müşahidə etməyə başladı. Nəzərləri özlərindən 5-6 metr aralıda səngərin torpaq divarına sancılmış partlamamış top mərmisində ilişib qaldı. Möcüzə baş vermişdi. Bir qədərdən sonra özünə gələn çavuş üzünü hələ də uzanmış əsgərlərə tərəf çevirib dedi:

- Uşaqlar,süfrəyə gəlin.

Əsgərlər iştahla yeməklərinə davam etdilər. Heç kim dillənmirdi. Hamı ürəyində müqəddəs bayram günündə səngərdə qurban süfrəsində bu qurbanın onları ölümdən qurtaran ALLAH tərəfindən qəbul olunmasına əmin oldu.

# QANLI NİŞAN ÜZÜYÜ

Vəfanın qardaşının toyu çox da böyük olmayan şadlıq saraylarından birində idi. Toy öz axarı ilə davam edirdi. O, sevinə bilmirdi. Hərdən qonaqlarla görüşərkən gülümsəsə də, bu süniliyə görə özü özündən utanırdı. Onunla birgə masa arxasında olan yeniyetmə qızların yerli-yersiz deyib gülmələri və şit-şit zarafatları da bu yandan onun kefsizliyini artırırdı. Bütün bunlara baxmayaraq, ərköyün yeniyetmələrə fikir vermirdi. Nəhayət, ona da növbə çatdı. Qızlardan biri onun barmağındakı nişan üzüyünə işarə edərək gülə-gülə dilləndi:



- Bəs sənin toyun nə vaxt olacaq?

Digəri isə atmaca atdı:

- Yəqin nişanlısı kasıbdır, toy ona görə gecikir.

- Ay çox bilmiş, haradan bildin?

- Üzüyündən.

O biri isə lap ağ elədi. Başladı gülə-gülə astaca oxumağa:

- Nə vaxta qaldı? Nə vaxta qaldı?

Bimirdi ki, bu qızlara nə cavab versin. Söz tapıb tutarlı cavab verə bilərdi. Amma etmədi. Ürəyində dedi:

- Cavandırlar, mən də o yaşda olsaydım yəqin ki, onlara qoşulacaqdım.

Ürəyindəki bu cavabdan razı qaldı. Üzündə təbəssümlə birgə xəyalı onu keçmişə apardı…

Vəfa Tibb universitetində təhsil alırdı. Hələ təhsilini başa vurmağa bir neçə il qalmışdı. Arzusu universiteti bitirib doğma elində, obasında həkim işləmək idi. Yay tətilini Qarabağda-öz kəndlərində keçirməyi qərara aldı.

Amma , sakitlik get-gedə təhlükəli hala çevrilirdi. Buna baxmayaraq Bakıya qayıtmaq fikri yox idi. Onun ağ xalat geyməkdən xoşu gəlirdi. Az qalırdı ki, gecələr belə ağ xalatda yatsın. Adını bilməyənlər onu “ağ xalatlı qız” deyə çağırırdılar. Ondan çıxmayan iş, bu gecə, necə deyərlər, lap daş kimi yatmışdı. Amma nə qədər bərk yatsa da səs-küyə oyandı. Kəndə gecə ikən hərbçilər daxil olmuşdu . Hərbi bölmənin komandiri mülki əhaliyə təxliyyə olunmaq üçün hazır olmaq əmri vermişdi. O da hamı kimi camaatın arasında idi. Təbii ki, ağ xalatda, hərbi maşınlara və piyada o tərəf-bu tərəfə tələsən əsgərlərə baxırdı. Elə bil ki, bu vaxta kimi heç əsgər görməmişdi. Bu an əsgərlərdən biri çağırdı:

- Ey, həkim qız, orda niyə dayanmısan? Tez ol bura gəl. Yaralımız var. Vəfa isə çaşıb qalmışdı. Özünü ələ alıb əsgər çağıran tərəfə tələsdi. Bununla da onun cəbhə həyatı başladı. Vicdanı yaralıları qoyub Bakıya qayıtmağa yol vermədi. Günlər keçirdi. Onun xidmət etdiyi hissədə könüllü olaraq Rusiyadan vətənini qorumağa gəlmiş Murad adlı əsgər də vardı. Vəfa və Murad bir-birlərini sevirdilər. Qəribə də olsa heç biri sevməyini dilə gətirmirdi. Onların sevgisi səssiz idi. İkisinin də dillərinin əvəzinə gözləri” danışırdı”. Bu baxışların nə dediyi hər ikisinə aydın idi:

- İnşallah, vətənimizi xilas edərik ,müharibə qurtarar sonra evlənərik. Cəbhə həyatı isə öz qanunları ilə davam edirdi. Yenə də atışma başlamışdı. Öz qorxmazlığı, mərdliyi və bacarığı ilə hamının sevimlisinə çevrilmiş Vəfa güllələrə əhəmiyyət verməyərək, səngərdən-səngərə keçir, yaralılara yardım edirdi. Atışma dayanmaq bilmirdi. Hər iki tərəf tutduğu mövqedən çəkilmək istəmirdi. Çətinliklə də olsa əsgərlərimiz üstünlüyü ələ alaraq irəliləyirdi. Onun bir saniyə belə dayanmağa, yaralı əsgərin kimliyini belə müəyyən etməyə vaxtı yox idi. Yaralının üzünə baxmadan bir başa yardıma başlayırdı. Güllə əsgərin ürəyinə dəysə də nəfəs alırdı. Yaralının köynəyinin yaxasını qayçıyla kəsib yarasını təmizləməyə başladı. Elə bu an görmədiyi, eşitmədiyi bir möcüzəylə rastlaşdı. Əlinə güllə əvəzinə qanlı nişan üzüyü gəldi. Güllə üzüyə dəyib çovumuşdu. Vəfa zədələnmiş qanlı nişan üzüyünü sahibinə tərəf uzatdı. Əli uzanılı qaldı. Üzüyün sahibi üzüyü almadı. Yaralı əsgər onun biləyindən tutub qanlı nişan üzüyünü barmağına keçirdi. Bu gözlənilməz hərəkətindən çaşdı, onun üzünə baxdı və sarsıldı. Bu yaralı əsgər - Murad idi. Onun nəzərləri Muradın gözlərində donub qaldı. Murad yaralı olmasına baxmayaraq özünü toplayıb, sakitcə dedi:

- Anamın yadigarıdır. Vəsiyyət edib ki, onun bu gəlinlik üzüyünü nişanlımın barmağına keçirim.

Bu qəribə nişan Vəfaya yeni bir güc, yeni bir ruh verdi. Döyüş isə get-gedə şiddətlənirdi. Geri çəkilən düşmənin uzaq vuran toplardan atdığı mərmi bir qədər aralıda partladı. Yaxşı ki, səngərə düşməmişdi…

Gözünü açanda əvvəl harada olduğunu anlaya bilmədi. Huşu get-gedə qayıdırdı.Artıq olduğu yer tanış gəlirdi. Hətta ona qoşulmuş süni nəfəs vermə aparatının da markasını ürəyində təkrarladı. Müalicə çox çəkdi. Hərbi xəstəxanadan çıxandan sonra hər şeydən əvvəl birinci olaraq Muradı görməyə tələsdi. Günlər keçirdi.Sonra aylar, sonradakı illər. Onu gördüm deyən olmadı. Özünə tam əmin idi ki, aldığı yara təhlükəli deyildi. Muradı ölümdən nişan üzüyü xilas etmişdi. Vəfa ruhdan düşmür, Muradı axtarmaqda davam edirdi. İnanırdı ki, bir gün Muradı tapacaq və ya da ki, Murad onu tapacaq…

Vəfanı acılı, şirinli xəyallarından ayırdılar. Kimsə onun nişan üzüyü taxılmış əlindən tutub, özünə tərəf çəkərək yallı oynamağa dəvət edirdi. Vəfa üzünü yanında oturmuş dillərini dinc saxlamayan şıltaq qızlara tutub sevinclə dilləndi:

– Hə qızlar, durun sizdə gəlin, yallıya qoşulun. Yallı birlik rəqsidir. Toyumu soruşdunuz. Tezliklə olacaq. Mən də Muradıma çatacağam.

## Yas məclisində şənlik

Gecənin bir vaxtı qəfil bir səs hərbi xəstəxananın palatasından dəhlizə yayıldı:

-Ayıldı, ayıldı!

Bu səsə tibb bacısı, həkim və gözünə yuxu getməyən bir neçə xəstə də özlərini yetirdilər. Həkim və tibb bacısı xəstənin şoka düşməməsi üçün hərəkətə keçdilər. Dalbadal iynələr vurulurdu. Arabir də tibb bacısının ürək-dirək verən səsi gəlirdi:

-Yaxşısan,sakit ol,hər şey yaxşıdır.

Nəhayət, xəstə rahat nəfəs almağa başladı. Hamı bu naməlum əsgərə baxırdı. Yeganə xəstə idi ki, onun çarpayısının aşağısındakı lövhədə adı, soyadı, atasının adı yeri boş qalmışdı. Əsgər sağ qalmağına şükr etsə də, bir neçə ayaq barmağının və sol qolunun çiynindən bir qarış aşağıdan amputasiya olunması onu həyacanlandırırdı. Dolaşıq fikirlər onu tərk etmirdi. Həsrətlə səhərin açılmasını gözləyirdi ki, yola çıxsın. Gözləri önünə atası, anası, qardaşı, bacısı və bir də müharibəyə getməmişdən qabaq əhd-peyman bağladığı Sevinc gəldi. Onu kədər bürüdü. Görəsən Sevinc onu necə qarşılayacaqdı? Bütün bunları ürəyində götür-qoy edirdi. Qəfil bir səs onu xəyaldan ayırdı.Bu həkimin səsi idi:

-Əsgər, sabahın xeyir. Hazırlaş evə gedirsən.

Avtobusun pəncərəsindən, bayırı seyr etməkdən doymurdu. Kəndlərinə yaxınlaşırdı. Sürücüdən qabaqdakı dayanacaqda saxlamağı xahiş etdi. Düşərək kəndə tərəf səmt aldı. Kənd magistral yola yaxın, evləri də lap elə girəcəkdə idi. Fikirli-fikirli yavaş-yavaş başını aşağı salıb gedirdi. Qəribədir, yolda bir nəfər də olsa ona rast gəlmədi. Hiss etdi ki, kəndə az qalıb. Başını qaldırıb evlərinə tərəf baxdı. Gördüyü onun qanını damarında dondurdu. Dünya başına dolandı. Ürəyi sürətlə döyünürdü. Sanki , daş heykələ dönmüşdü. Nə qədər etsə də ayağını yerdən qadıra bilmirdi. Elə bil ayaqlarının hər biri azman bir dağ ağırlığında idi. Evlərinin qabağında mağar qurulmuşdu. Mağarın qabağındakı adamlar açıq-aşkar görünürdü. Bu mağar görünüşündən yas mağarına oxşayırdı. Beynində qarışıqlıq yarandı.

- Anamdımı, yoxsa atamdımı…?

Sözünün ardını gətirə bilmədi. Bədənindən bir gizilti keçdi. Elə bil onu cərəyan vurdu. Bu gizilti onu hərəkətə gətirdi.Təngə-nəfəs olmuşdu.

Mağara çatmağa cəmi 10-15 addım qalırdı. Adamların arxası ona tərəf olduğundan onu görmürdülər. Səbəbini özü də bilmədən addımlarını yavaşıtdı.Açıq-aydın eşidirdi:

- Qardaş, allah oğluna rəhmət etsin.
- Dayı, allah sənə səbr versin.
- Axır qəminiz olsun.

Yenidən sarsıntı keçirdi, qulağı uğuldamağa başladı:-Qardaşımmı ölüb? Beli büküldü. Başı aşağı keçib atasının qabağında dayandı. Müharibə onu tanınmaz hala salmışdı. Atası gözlənilmədən qabağında peyda olmuş dinməz əsgərə baxırdı. Bunun yuxu, yaxud gerçəklik olduğunu, əsgərin isə kim olduğunu aydınlaşdırmağa çalışırdı. Amma heç nə ayırd edə bilmirdi.

- Can qardaş!

Qəflətən bir nəfər onu iki əliylə bərk-bərk qucaqladı. Bu onun qardaşı idi. Əsgər isə qardaşını ancaq bir əllə qucaqlaya bildi.

Kəndi ağlamaq və hönkürtü səsi bürümüşdü. Elə bil ki, bu kənddə illər uzunu heç kim ağlamayıb, ağlamaqlarını bu günə saxlamışdılar. Hamı ağlayırdı. Böyüklərə baxıb kiçiklər də ağlayırdı.

Çox çəkmədi ki, mollanı musiqiçilər əvəz etdi. Qoçlar qurban kəsildi. Onun ili üçün ehsan bişirilmiş bozbaş şənliyə qismət oldu. Kəndin camaatı, qonşu kəndlərdəki tanış-bilişlər, qohum - əqraba, hamı gözaydınlığına axışırdı.

Günlər keçirdi, onun gözləri giriş qapısına mühafizə kamerası kimi tuşlanıb qalmışdı. Bacısı gözlərindəki kədəri oxuyurdu. Bilirdi ki, o gözlər Sevinci gözləyir. Bacısı ona yaxınlaşaraq qucaqlayıb saçından öpərək dedi:

- Qardaş,nə qədər çətin olsa da səni intizarda qalaraq əzab çəkməiyinə dözə bilmirəm. Özünü ələ al. Sevinc ərə gedib.

Ax, yenə sarsıntı, sarsıntı.

-Nə?- deyib bir əliylə başını tutub yerə çökdü. Dünya başına dolandı. Özündən asılı olmayaraq sol qolunda, biləyindən yuxarı müharibənin ilk günlərində sevinclə döydürdüyü tatirovkaya: “Etibar + Sevinc = M” yazısına baxmaq istədi. Çaşdı. Yazı yox idi. İlk dəfə olaraq qolunu itirdiyinə görə heyifsilənmədi.

## Gözlənilməz görüş

Qatı duman idi. İki addımlıqdan belə kimisə tanımaq mümkün deyildi. Hərbi hissənin komandiri Qələmdar bütün əsgərlərə diqqətli və ayıq-sayıq olmağı tapşırmışdı. Hər gün ermənilər tərəfindən atəşkəs dəfələrlə pozulsa da bu gün sakitlik idi. Elə bu vaxt postda növbədə olan Faiq Əliyevin düz qabağında qəflətən əynində mülki geyim, çiynində də xurcun olan bir nəfər peyda oldu. Faiq özünü itirmədi.

– Dayan, -deyərək silahı ona tərəf tuşlayıb xəbərdarlıq etdi.

Naməlum adam dilləndi:

–Ay bala, sən məni lap qorxutdun. Dumana düşüb azıb qalmışam.

–Bəs buralarda nə edirsən?

–Sizin üçün meyvə payı gətirmişəm, -deyərək xurcunu göstərdi.

–Bu dumanda nə meyvə?

–Ay oğul,mən evdən çıxanda hava çox yaxşı idi, duman birdən gəldi. Mən də yolu itirdim.

Faiq rabitə vasitəsilə komandirə naməlum şəxs barədə məlumat verdi.

Çox keçmədi ki, bir neçə nəfər əsgər gəldi.Onlardan biri onu növbəsini çəkib qurtardığı üçün dəyişməyə gəlmişdi. Faiq və digər əsgərlər naməlum adamı hərbi hissəyə doğru aparırdılar. Naməlum adam isə yol boyu əsgərlərlə deyib-gülür, zarafatlaşır, hətta lətifə də danışırdı. Nəhayət, hərbi hissəyə çatdılar. Faiq komandirin qapısını döydü. İçəridən “Gəl” sözünü eşitdikdən sonra içəri keçdilər. O, hərbi salamdan sonra naməlum adam barədə raport verdi. Lakin verilmiş raporta cavab gəlmədi. Komandir donub qalmışdı. Elə bil Faiq ona nə hərbi salam vermişdi, nə də ki, raport. Handan-hana komandir yerindən asta-asta durub naməlum adama yaxınlaşıb gözlərini düz onun gözlərinə zillədi. Otaqda qəribə sükut yarandı. Bu ükutu elə komandirin səsi pozdu:

-Suren, bu sənsən?

Surendən səs çıxmadı. Elə bil ayaq üstə dayanmış meyit idi. Faiq də çaşıb qalmışdı. Komandir tərəfindən “Azad” komandası verilməsə də özündən asılı olmayaraq çevrilib Suren tərəfə baxdı. Ani olaraq ona elə gəldi ki, indicə gətirdikləri adam həmin adam deyil. Onun əsl erməni sifəti həmişəlik olaraq Faiqin yaddaşına həkk olundu…

Əslən Ağdamın Çəmənli kəndindən olan Qələmdar Surenlə bir kənddə böyümüşdü.Danışığından,hərəkətlərindən Surenə erməni demək olmazdı. Kəndin camaatından başqa onun erməni olduğunu az adam bilirdi.Qarabağ münaqişəsi başlamazdan bir qədər əvvəl Surengil ailəliklə kənddən köçüb getmişdi. Qələmdar isə orta məktəbi qurtaran kimi Ali Hərbi Məktəbə qəbul olub vətənə xidmət etməyi qərara aldı. Qurtaran kimi xahiş

etdi ki, onu birbaşa cəbhə bölgəsinə göndərsinlər. Qısa müddətdə özünü bacarıqlı kadr kimi göstərdiyi üçün onu hərbi hissəyə komandir təyin etmişdilər. Cəbhədə olduğu müddətdə kəşfiyyat məlumatlarından bilirdi ki, çox təhlükəli təxribatçıların sırasında Suren də vardır. Amma bu Surenin həmin Suren olduğunu bilmirdi. Bu gözlənilməz görüş Qələmdarı sarsıtmışdı. Ani olaraq Surenlə bir süfrədə kəsdiyi çörək, bir bardaqdan içdikləri su yadına düşdü.

Özünü ələ alan komandir əmr etdi:

– Aparın , xüsusi nəzarətdə saxlayın. Gətirdiyi payı isə ekspertizaya yollayın.

Komandir xüsusu rabitə vasitəsilə hərbçilərimiz tərəfindən təhlükəli təxribatçının ələ keçirilməsi barədə rəhbərliyə məlumat verdi.

Rəhbərliklə danışdıqdan sonra əsgərlərə “Düzlən” komandası verildi.

Kapitan Qələmdar Hüseynov əmr etdi.

-Əsgər Faiq Əliyev, sıradan çıx.

Təhlükəli erməni təxribatçısının ələ keçirilməsində göstərdiyiniz fədakarlığa görə rəhbərlik sizə təşəkkür elan edir.

Bir neçə gündən sonra komandir ekspertizanın nəticəsi ilə maraqlandı. Nəticə bir daha sarsıdıcı oldu, gətirilmiş erməni “payı” zəhərli imiş.

## Əzizinəm, Qarabağ…

Şirin yuxum yavaş-yavaş qaçırdı. Hiss edirdim ki, səhər açılır. Gözlərimi açmırdım. İstəmirdim ki, yuxu məni tez tərk etsin. Axı bu yuxunu zorla, gecədən xeyli keçəndən sonra tapmışdım.İstəyimin əksinə olaraq şirin yuxu məni tərk etdi. Yenə də gözlərimi açmayıb yerimdə qurdalanırdım. Gözlərimi açdım. Könülsüz yerimdən qalxıb su kranına doğru getdim. Yerimi yığışdırmadım. Sanki yenə də anamın: "Yekə kişisən, hələ də yerini mən yığışdırıram," – deyə öz-özünə deyinməsini eşitmək üçün yerimi qəsdən yığışdırmamışdım. Otağın sükutunu su kranının şırıltısı pozdu. Candərdi yuyunaraq kranı bağladım. Yenə də sükut. Darıxdırıcı sükut məni sıxdı. Çay içməyə də həvəsim olmadı. Qapını bağlayıb pilləkənlərlə aşağı düşdüm. Sükut pozuldu. Avtomobillərin əcaib siqnalları, sirena səsləri… Bu səslərdən "qaçmağa" başladım. Sakit bir yer axtarırdım. Necə də qəribə adamam. Özüm özümü başa düşə bilmirəm. Elə bil evdən sükuta görə qaçmamışdım. İndi də səs-küydən sükuta döğru qaçıram. Parka yetişdim. O qədər də sakitlik olmasa da məni qane edirdi. Boş yer axtarırdım.. Skamyalarda oturanlar olsa da boş yerlər vardı. Mən isə bu böyük şəhərdə tək qalmaq istəyirdim. Dalda bir yerdə tamam boş skamya tapıb oturdum.Yavaş-yavaş özümə gəlirdim…

Rahat nəfəs alıram, ürək döyüntülərim qaydasına düşüb, qan təzyiqim də, yaxşıdır. Xəzri də sərinlik gətirir. Ağaclarda oturmuş bülbüllərin, bəzək kollarının arasından qaratoyuqların cəh-cəhi eşidilirdi.Bir az aralıda qovaq ağacının kölgəsində ahılların kimisi şahmat oynayır, kimisi kəklikotulu çay içə-içə şirin-şirin söhbət edirdi.Nədənsə onlara qoşulmayıb, seyr etməklə kifayətlənirdim. Kəkliotunun ətri gül və çiçəklərin ətri ilə qarışaraq xoş rayihə yaradırdı. Bu rayihəni ciyərlərimə çəkməkdən doymurdum.Bir az aralıda bir neçə yaşlı qadın bir-birilərinin üzünə baxmayaraq, söhbət edə-edə nəsə toxuyurdu. Onlardan azca aralı uşaqlar oynayırdı.Arabir onlardan biri aralanaraq anasının yanına qaçır və barmağı ilə dəstədə hansı uşağısa göstərərək nəsə deyirdi. Ana əyilərək uşağın qulağına yavaşca, eşitmədiyim səslə pıçıldayır. Şikayətçi uşaq yenidən dəstəyə qoşulur. Mən də uşaqlara qoşulmaq istəyirəm. Gizlənpaç, qaçdı-tutdu, çiling-ağac, bənövşə-bənövşə, qazlarım-qazlarım oynamaq istəyirəm. Anamın yanına qaçıb uşaqlardan şikayət etmək istəyirəm. Ağlamaq istəyirəm. İstəyirəm ki, anam başımı tumarlasın, qucaqlasın…

Qəfil bir səs məni xəyallardan ayırdı. Bir vaxt gerçək olan xəyallardan ayrılmaq istəmirdim.Fikrim məni xəyallardan ayıran, əlində yandırılmamış siqaret tutan yeniyetmədə qalmışdı.Nə dediyini eşitmirdim. Qəribədir, diqqətim mənə lazım olamayan bu yeniyetmənin

oğlan və ya qız olduğunu ayırd etməyə yönəlmişdi.Özüm də bilmirdim ki, bu, mənim nəyimə lazımdır? O səs bir də eşidildi: “Dayday, səninləyəm e, yandırmağa “zajiqalkan” var?” Məni xoş xəyallardan ayıran yeniyetmənin üzünə baxa-baxa qalmışdım. Cavab vermək iqtidarında deyildim. Boğulmağa başladım, nəfəsim çatmırdı. Tərslikdən öskürək də başladı. “Niçeqo ne ponil”-deyərək çiyinlərini çəkərək uzaqlaşdı. Qulaqlarım uğuldayırdı.İki əllə qulaqlarımı tutdum. Əksinə qulaqlarımda səs-küy, daha da artdı. Bu səs-küydən “qaçmağa” başladım.Nağıllarda olduğu kimi, sağa getdim, sola getdim, düz getdim.Enli pilləkənlərlə, tələsə-tələsə aşağı düşən insanları gördüm.Bir az dayanmağa üstünlük verdim. Düşənlərin ardı-arası kəsilmirdi. Elə bil bu boyda şəhərin boyüklü-kiçikli bütün əhalisini doymaq bilməyən nəhəng bir əjdaha kimi udacaqdı.Bu pilləkənlərin nə olduğunu aydınlaşdırmaq istəyirdim. Girəcəkdə dairəvi lövhədə M hərfi yazılmışdı. İnsan axını çoxalmışdı.Geri qayıtmaq müşkül idi. Bir də gördüm ”sehrli” pilləkənlərdəyəm. Yerimdə dayansam da məni həmin pilləkənlər aparırdı.Birdən qəfil səs gəldi:

”- Hörmətli sərnişinlər”… Bu xoş səsin kəsilməyini istəmirdim. Qatar dayandı.Qapılar açıldı.Yenə o xoş səsi eşitdim: “- Qapılar bağlanır”… Qatar sürətlə uzaqlaşırdı.Təkərlərinin səsi eşidilməz oldu. Yenə də sakitlik, sükut. Bu qədər geniş yerdə, yerin altında iki nəfər qalmışdıq.Bir mən, bir də əynində uniforma olan bir qız. Geyimi qızın gözəlliyini dahada artırırdı. Yadıma bir atalar sözü düşdü: “Gözəllik ondur, doqquzu dondur”. Ürəyimdə güldüm.Qəlbimin səsinə qulaq asmağa başladım.Qəlbimdəki səs get-gedə çoxalırdı:”- Əzizinəm, Qarabağ… yaddan çıxmaz Qarabağ”. Bu, Seyidin səsi idi.Bu səsi elə bil anadan olanda həmişəlik beynimə həkk etmişdilər.Mənə elə gəlirdi ki,bu səs məni o dünyada da tərk etməyəcək. Gah Şuşa qayalarına dırmanır, gah Bazar düzündə at çapır, gah da İsa bulağının gözündən su içirdim.Yenə o xoş səs məni xəyallardan ayırdı.Bu sükutu pozan həmin o ikinci nəfər idi. İndi onu yaxından görürdüm. Qarşımda üzündə təbəssüm olan bir mələk dayanmışdı. Bu”mələk” dilləndi:
-Baba, hara getmək istəyirsiniz?

-Qarabağa.

Mələyin üzündəki təbəssüm kədərlə əvəz olundu.

Qəlbimdəki səs isə get-gedə yüksəlirdi: Əzizinəm, Qarabağ…yaddan çıxmaz Qarabağ…

## Oğul əvəzi



Əvəz hərbi xidmətini qurtarıb evə getməyə hazırlaşırdı. Ona yeni gəlmiş bir əsgər yaxınlaşdı və dedi:

- Qardaş, səndən bir şey xahiş etmək istəyirəm.

- Eşidirəm,sözünü de.

- Bizim ev Bakı yolundadır. Sənə zəhmət də olsa anama baş çək. Məndən nigarandır.

- Bəs deyirdin ki, qarabağlısan?

- Hə, elədir, qarabağlıyam. Kəndimizi ermənilər işğal edib.

Əvəz, düşünmədən dediynə utandı. Başını belə qaldırmayıb dilləndi:

- Evin nömrəsini, küçənin və ananın adını bir kağıza yaz ver.

- Yazmağa ehtiyac yoxdur. Ümid qəsəbəsində yaşayırıq. Kimdən soruşsan ki, Şuşalı Xanımın evi hansıdır, göstərəcəklər.

Əvəz hamı ilə sağollaşıb yola çıxdı.

…Avtobus sürücüsündən xahiş etdi ki, Ümid qəsəbəsində saxlasın. Gözünü pəncərədən çəkmirdi. Getdikcə Qarabağın dağlarını,yamaclarını, meşələrini təpələr, sonra da kasıb, şoran düzənliklər əvəz edirdi. Sürücü avtobusu kənara çəkib saxladı:

- Əsgər, dediyin yerə çatdıq, düşə bilərsən.

Qəsəbə elə yolun kənarında idi. Bir qədər getdikdən sonra birinci rast gəldiyi doqquz-on yaşlı oğlandan soruşdu:

- Bilmirsən Xanım xalanın evi hardadır?

- Bilirəm. Niyə bilmirəm? Gəl gedək göstərim.

Əsgərin əlindən tutub sevinə-sevinə aparırdı.

- Hə, çatdıq. Sən burda gözlə.

Daha uşağın sözünə bir söz deməyib dayandı. Uşaq küçə qapısını açıb içəri keçdi və var səsiylə çağırmağa başladı:

- Nənə, Xanım nənə, tez gəl muştuluğumu ver. Oğlun əsgərlikdən qayıdıb.

Heç yarım dəqiqə keçməmiş Xanım xala ayaqyalın, baş açıq özünü yetirdi.

- Hanı oğlum?

Oğlan cəld elə qapı ağzında dayanmış Əvəzi içəri dartdı. Xanım xala hönkürtü ilə ağlaya-ağlaya onu qucaqladı:

- Can oğul, nə bildin ki, sənin üçün çox darıxmışam.Nə yaxşı gəldin. O da ananı qucaqladı.Bərk kövrəlmişdi. Özünü saxlaya bilməyib səsiz-səssiz ağlayırdı. İçəri keçib üzbəüz oturdular. Ana çaşıb qalmışdı. Bu onun oğlu deyildi. Gözlərini hələ də için-için ağlayan əsgərdən çəkə bilmirdi. Yaxılaşıb başını tumarlamağa başladı:

-Nə oldu sənə? Niyə belə ağlayırsan? Ağlama, elə sən də mənim oğlumsan.

Bu sözlərdən və tumardan sonra əsgərin ağlamağı daha da şiddətləndi. Axı, necə deyəydi ki,hələ onu bu vaxta kimi ürəkdən qucaqlayan, oğul deyən olmayıb.

Xanım xala mətbəxə keçib çay qoydu. Daha otağa keçmədi. Hazır olduqdan sonra əsgərə və özünə çay apardı.

Əvəz çayını içib getmək istədiyini bildirdi.

- Hara gedirsən? Elə indi gəlmisən ki. Heç çörək də yeməmisən. Təkəm. Bir-iki gün qal sonra gedərsən. Qoy oğlumun ətrini səndən alım.

- Yaxşı, nə deyirəm,olsun.

Əvəzlə Xanım xala mehribanlaşmışdılar. Çay içə-içə şirin söhbət edirdilər. Xanım xala dilləndi:

- Ay oğul, neçə gündür bir yerdəyik. Heç demirsən harada yaşayırsan,eviniz hardadır? Adını belə bilmirəm.

Bu sualdan çöhrəsi tutuldu. Bir qədər keçdikdən sonra qəmli-qəmli dilləndi:

- Deyilənə görə Laçındanam. Ata-anamın kim olduğunu bilmirəm. Onlar haqqında heç bir məlumat yoxdur. Körpə ikən məni əsgərlər xilas edib uşaq evinə veriblər. İnternat məktəbini bitirib peşə məktəbində oxumuşam. Ordan da əsgərliyə getmişəm. Adımı da tərbyəçilər qoyub - Əvəz.

Bu cavabdan Xanım xala çox pis oldu. Əsgərə yaxınlaşıb əlini üzünə qoyub diqqətlə baxmağa başladı.O, bu üzdə Xocalıda itirdiyi ərinin və oğlunun doğma cizgilərini axtarırdı.

- Mən sənin getməyinə razı deyiləm.  Bilirsən ki, oğlum əsgərlikdədir, gələnəcən oğlumu əvəz elə.

Xanım xalanı tək qoyub getməyə ürəyi gəlmirdi. Ona isinişmişdi.  Günlər, aylar keçirdi. Artıq Xanım xalanın oğlunun gələn vaxtı idı. Lakin, gəlib çıxmırdı. Əvəzin səbri çatmadı. Xanım xalaya oğlunun dalınca getmək istədiyini bildirib yola düzəldi. Xidmət etdiyi hərbi hissəyə çatdı. Komandir və zabitlər onu hörmətlə qarşıladılar. Amma aldığı xəbər sarsıdıcı idi: “Əsgər bir ay bundan qabaq hərbi tapşırığı yerinə yetirməyə getsə də hələ  gəlib çıxmayıb.”

Əvəz Xanım xalaya nə deyəcəyı barədə düşünürdü. Gəlib çatdı.Avtobusdan düşdü. Onu yolun kənarında  dayanmış Xanım xala gözləyirdi. Üz-üzə dayandılar.  Sükutu Əvəz pozdu:

- Ana.

O, həyatında  birinci dəfə idi ki,ana deyirdi.Təkrar dilləndi:

- Ana, qardaşım hərbi tapşırığı yerinə yetirməyə gedib.

Heç biri dillənmədi.

Aylar keçdi. Ayları illər əvəz etdi.

Evdə tək idilər. Əvəz hiss elədi ki, Xanım xala sözlü adama oxşuyur. Amma sözünü deməyə ürək eləmir.

- Ana , sözünü saxlama, de.

- Bilmirəm necə deyim. Səni evləndirmək istəyirəm.

Bu təklifdən Əvəz diksindi:

- Yox , ana. Qardaşım gəlməmiş evlənə bilmərəm.

- Oğul, get-gedə yaşlaşıram. İstəyirəm ki, gəlin çayı içim,qucağıma nəvə alım. Gəl ananın sözünü yerə salma.

Bu sözün qabağında daha dillənməyib başını aşağı saldı.

Həyətdə  toy mağarı qurulmuşdu. Xanım xalaya nə qədər məsləhət versələr də ki, toyu şadlıq sarayında elə. Etiraz etmişdi:

- Yox əhd etmişəm ki, toyu həyətdə edim.

Toy davam edirdi. Yerlilərindən biri ona yaxınlaşıb gülə-gülə dilləndi:

- Xanım, bəy axı sənin oğluna oxşamır.

- Bu mənim böyük oğlumdur.

- Onda bəs kiçik oğlun hanı?

- Kiçik oğlum əsgərlikdədir.İnşallah gələr. Onun da toyuna hamınızı çağıracağam.

# YAXŞILIQ

Asifin qulaqlarına şəlalə səsi, bülbüllərin cəh-cəhi,yarpaqların xışıltısı və bir də bu səslərin ahənginə şirinlik gətirən incə qız səsi qarışırdı. Hərdən də bu səslərə xırıltılı, iniltili bir səs də qoşulurdu. Necə də gözəl yuxudu.Özünü cənnətdə hiss edirdi.O, bu yuxudan ayılmaq istəmirdi. Bu yuxunun uzun çəkməsini arzulayırdı. Hiss etdi ki, gözünə günəş şüası düşür. Oyanmaqdan qorxdu. Cəld əliylə gözlərini tutdu. Elə bu an incə səs həyəcanla çağırırdı:

- Baba, baba, hardasan? Əsgər özünə gəlib. Tez gəl.

Bu səsə Asif tez gözlərini açdı. Heç nə anlamadı. Diqqətlə ətrafı nəzərdən keçirdi. Hər tərəf daş və qayalıq idi. Buranın mağara olduğunu anladı. Çox çəkmədi ki, mağaraya saçları ağarmış, beli bükülmüş yaşlı kişi və onun əlindən tutmuş 13-14 yaşlı qız daxil oldu.

Yaşlı kişi əsgərə yaxınlaşdı. Əlini onun alnına qoydu. Asif yerindən qalxmaq istədi. Amma bacarmadı. Yaşlı kişi dilləndi:

- İndi qalxa bilməzsən. Əl-ayağın yadırğayıb. Tezliklə sağalacaqsan.

Əsgər gündən - günə yaxşılaşırdı. Baba, nəvə və əsgər bir-birlərinə isinişmişdilər.

Havalar get-gedə soyuyurdu. Gecələr mağarada ocaq qalayırdılar. Xoşbəxtlikdən ocağın işığı kənardan görünmürdü. Ocaq başında idilər. Baba dilləndi:

- Oğul, biz təxminən bir ildən yuxarıdır ki, bu mağaradayıq. Keçən qışı bir təhər keçirdik. Bu qış sərt olacaq. Burda qala bilmərik.Allaha şükür, daha yaxşısan. Getməliyik.

- Baba, nə dedin? Bir ildən yuxarıdır burdayıq? Heç nə başa düşmədim.

- Hə oğul, elədir. Biz səni cığırda huşsuz halda tapıb bir təhər bu mağaraya gətirmişik. Yollar təhlükəli olduğu, həm də maşallahlar olsun, kəndə aparmağa gücümüz çatmadığı üçün hələlik burda qalmağı qərara aldıq. Səni kimsəsiz qoyub gedə bilməzdik. Bu çığır çətin və təhlükəli

olduğu üçün burdan ancaq bələd olanlar istifadə edir. Oğlum və gəlinim hərbi xidmətdədir.Oğlum zabit, gəlinim isə həkimdir. Kənddə bu nəvəmlə yaşayırdıq. Bir gecə ermənilər qəflətən hücum edib kəndimizi darmadağın edərək yandırdılar. Biz də məcbur olub kəndi tərk etməli olduq. Hə oğul, de görək sən kimsən? Bura necə olub çıxmısan?

- Baba, hərbi xidmətimi başa vurub qurtarmışam. Hərbi hissəmiz dağların arasındadır. Evə tez çatmaq üçün kəsə yolla getməyi qərara aldım. Qəflətən zəlzələ qopdu. Dağın başından iri-iri daşlar tökülməyə başladı. Mən də qayaya sığınmışdım.Bu qaya mənə Təngəaltını xatırlatdı. Məndən azca aralı mina partladı.Sən demə daşlardan biri düz minanın üstünə düşüb. Məni də ölümdən qaya qurtarıb. Sonrasını xatırlamıram.

... Ala toranlıqda üç nəfər qayaların arasıyla sakit-sakit irəliləyirdi. Heç biri dillənmirdi. Nəhayət, uzun,üzücü çığır qurtardı. Kənd yoluna çıxmışdılar.Yaxınlaşan avtobusa əl edib saxlatdılar. Bir neçə saatdan sonra Asif yaşadığı rayona çatdı. Sürüçüdən saxlamağı xahiş etdi. Baba və nəvə ilə sağollaşıb avtobusdan düşüb onların oturduqları yerə, pəncərənin qabağına gəlib onlara əl etdi. Bircə anda gördüyü onu sarsıtdı.Baba və nəvənin gözləri doluxsunmuşdu. Elə bil yuxuda idi. Birdən ayıldı.Öz-özünə:

- Mən nə edirəm? Axı onların gedəsi yeri yoxdu.

Qaçaraq tərpənməkdə olan avtobusun böyrünü əliylə möhkəm şappıldatıb ucadan qışqırırdı:

- Saxla, saxla!

Cəld avtobusa qalxıb, onların əlindən tutaraq avtobusdan düşürdü.

- Bizə gedirik. Bir yerdə yaşayacağıq.

Yoldan keçənlər baş-başa verib bir-birlərini qucaqlayaraq sakit-sakit ağlayan üç nəfərə təəcüblə baxırdılar.

## KİTABIN İÇİNDƏKİLƏR


**Ön söz. Hekayələrində Qarabağ yanğısı, Vətən dərdi göyərdən yazıçı.......3**

**Məhərrəm Mustafanın söz qüdrəti................................................................ 4**

**Məhərrəm Mustafa yaradıcılığına baxış........................................................ 6**

**YARALI TUT AĞACI.....................................................................................7**

**Damsız ev .......................................................................................................12**

**Ata əmanəti ..........................................................................................13**

**ƏLİNİN MÜQƏDDƏS ƏMANƏTİ........................................................................5**

**Qaranquşun Xocalı arzusu.........................................................................18**

**Müqəddəs duz.................................................................................................20**

**Səngərdə Qurban süfrəsi.............................................................................23**

**QANLI NİŞAN ÜZÜYÜ.......................................................................................25**

**Yas məclisində şənlik......................................................................................28**

**Gözlənilməz görüş.........................................................................................30**

**Əzizinəm, Qarabağ…......................................................................................32**

**Oğul əvəzi.........................................................................................................34**

**YAXŞILIQ.........................................................................................................38**